بوتون ئولکه‌لرك پروله‌تارلاری برله‌شیگز!

٢١ فیورال ١٩٢٨ نجی ایل

تك نسخه‌سی هر یرده ٣ قپك

« زنگی » نك آبونه قیمتلری:
بر ایللیکی . . . . ـ ٢ منات
آلتی آیلغی . . . . ـ ١ منات
اوچ آیلغی ٦٠ قپك . . . .
اداره‌سی: ارمنستان ق. (ب) ف. م. قومیته‌سی

زنگی غزته‌سی

ارمنستان قوممونیست (ب) فوقه‌سی
مرکزی قومیته‌سینك اورغانی کندلی غزته‌سیدر

زحمتکشلره فرقه و شورا قورلوشنه عائد
یازیلاره صحیفه‌لریمز آچیقدر. چاپ
ایدیلمه‌یه‌ن مکتوبلار گیری قایتاریلمیر.

یاشاسین ایشجی کندلی اتفاقی!

توزیعات شعبه‌سنك آدره‌سی: ایروان آبوویان نومرو ٨

نومرو: ١٠٧ | هر هفته بازار و جمعه آخشاملاری چیقیر. | اوجونجی ایل دوامی.

خورورداین هایاستانك ٢٠٠٠ نمره‌سینه

انقلابه قدر بورژوآزیا ئولکه‌لرینده او لدیغی کبی روسیه‌ده‌ده مطبوعات برآووج دولتلی صنفنك النده ایشجی و کندلیلری ازمك و ملتجی فرقه‌لر اوز منفور سیاست لری ایچون «هر بیر مطبوعات ملی روح ملی مفکوره تعقیب ایتمه‌لیدر» کبی بیر چوق ساچما ساپان سوزلر ایله ایشجی صنفیله کندلیلری مدنیت و کرکه مطبو عات ساحه‌سندن کیریده براقماق اولوب دیل ایله سویله‌نمه‌سی یازی ایله یازیلماسی ممکن اولمویان مین دورلو اشکنجه‌لر و بیر ئولکه‌ده یاشیان قومشو و قارداش ملتلری بیر بیرینه قیردیرمق ایچون کچمیش مطبوعات وارلی صنفنك النده بیر آلت اولدیغی هامونك آڭلادیغی بیر قضیه‌در.

بورژوآزیا مطبوعاتچیلری و بورژوآ زیا محررلری کتله‌نك حالینه یاناجاق او نلاره حقیقی یوللار کوستره‌جك کتله‌وی روحله یازیلان یازیلار و یازیجیلار ایله جدی مبارزه آپاریردیلار. اوز آغالارینك سوزلرینی یتیرمك ایچون دین، اخلاق، ناموس و حتی قانون کبی «مطبوعات آزا ده‌لیکی» ماسکه‌سی آلتنده کیزله‌نه‌رەك اڭ آشکار حقیقتلری ده‌کنشدیرمکدن و ملتلری قیردیرماق سیاستلرینی ایشجی صنفی آڭلامشدر. پروله‌تاریا مطبوعاتی ملتلر آراسنده قارداشلق و بوتون دنیا ایشجی صنفنك بیر اولدیغنی؛ بو باره‌ده ملتجیلر ایله مبارزه ایدن ایشجی صنفنك کسکین؛ ایتی بیر سلاحیدر. آرتق بونی دانماق اولماز.

بوتون دنیا زحمتکشلرینك سعادتی ایچون حقیقی یوللار کوستره‌رەك مانعلر ایله جدی مبارزه آپاریر. پروله‌تار مطبو عاتی بوتون زحمتکشلرك کوره‌ن کوزی، ایشیدن قولاغی چرپینان وجدانی اولوب اونلارك کیده‌جکی یوللاری کوستره‌ن بیر رهبردر. روسیه ایشجی و کندلیلرینك «ازوه‌ستیا» «پراودا»سی آذربایجان ایشجی و کندلیلرینك انقلابی و مدنی سوسیالیزم وظیفه‌سنی ئوز عهده‌سینه کوتوره‌ن «قو مونیست» «یکی یول» غزته‌سی اولدیغی کبی ارمنستان زحمتکش کتله‌سنگده انقلاب میوه‌سی اولوب بو کونلری ٢٠٠٠ نومره‌سنی بایرام ایتمکله فرحله‌ندیکمز «خورورداین هایاستان»ی واردر. بوغزته ئوز عهده‌سنه کوتورمیش بوتون چتینلکلری لایقی ایله ایفا ایتمش و ایتمکده‌در. ملی و وطنداش محاربه‌لرینك نتیجه‌سی اولاراق خرابه‌زاره دونمش ئولکه تصرفاتمزك قو رولوشنده آز ایش کورمه‌مشدر. بیز صنفی مبارزه‌مزك فداکار اورغانلارینه اوجمله‌دن «خورورداین هایاستن». انقلابی قیمت ویرمه‌لییز. چونکه اونك تعقیب ایتمش و ایتمکده اولدیغی بولشه‌ویك خط و حر که‌تی؛ بو خط و حرکه‌تله اطرافینه توپلا دیغی بیگلرجه ایشجی و کندلیلر آراسنده خصوصی بر اهمیتی واردر.

اونك اهمیتی اونداد‌رکه او تاریخیك ایمدی‌یه قدر حل ایده‌بیلمه‌دیکی ملی مسئله‌یی فرقه‌مزك قراری اوزره حیاته کیچیر مکه موفق اولمشدر. بوندان آلتی ایل اول داشناق، مساوات فرقه‌لرینك سیاستی نتیجه‌سیله قیردیریلان تورك ـ ارمنی ایشجی کندلیلری آراسنده قارداشلق یاراتماغا مو فق اولمشدر. بو مطبوعات چینوولیکلر النده اولمایوب ایشجی صنفی و اونك امکداشی اولان کندلیلرك النده‌در. داها دوغروسی عمله صنفنك آواقاردی بولشه ویق فرقه‌سنك‌واونك حکومتی اورغانیدر.

بونك ایچونده ئوز صنفنك بوتون منفعتلرینی مدافعه ایله‌مك و بیر چوق یارا مازلیقلارله مبارزه ایله‌مکی پروله‌تاریا مطبو عاته ایشجی صنفنك اوزی ویرمشدر.

«خورورداین هایاستان» غزته‌سی عجبا عهده‌سنه آلدیغی وظیفه‌یی تماملیه ایفا ایتمشدرمی؟ سؤاله ئه‌وت دیمکده هیچ بر تردد اولوناماز. بونی انکار ایدنلر یا لگز ایشجی صنفی و اونك حکومتنه دو شمن اولانلار اولابیلر.

ارمنستان ایشجی و کندلیلرینك سه‌وه سه‌وه اوقودیقلاری و بوگونکی گونده اونك ٢٠٠٠ نمره‌سی یوبیله‌یی بایرام ایدن زحمتکشلرك شادلیغنه بیزده اشتراك ایتمکله امین اولورزکه فرقه و حکومتمزك اور غانی اولان «خورورداین هایاستان» ئوز دوتدیغی بولشه‌ویق خط و حرکه‌تنده دوام ایده‌رك بوخط و حرکه‌تدن آیریلمایاجاقدر.

بالا افندی‌یف

ایروان قضا گنجلرینك ٨ نجی قورولتایی

فیورال آینك ١١ ده آقشام ساعت آلتی‌ده ایروان قضا ل. ق. ك. اتفاقی تشکیلاتنك ٨ نجی قوقرانسی آچیلدی.

قورولتای ایروان قضا قوموسمول قو میته‌سی کاتبی یولداش آرزومانیان طرفندن آچیلاراق، ٨ نجی قوقرانسینك قباغنده دوران مسئله‌لری اعلان ایتدی.

زاقافقاسیا ئولکه قومیته‌سی آدیندن یولداش قیقیچقوری قورولتایی تبریك ایتدیکدن سوکرا بر نیچه فعله ئوزه‌کلری و له‌نیناقان قضا تشکیلاتی طرفندن فعله نماینده‌لری قوقرانسی تبریك ایتدیلر.

تبریکدن سوکرا قورولتایك هیئت ریاستنه ستالین، بوخارین،اورژونوکیده،چاپلین، اور خالاشویلی و رحمانوف یولداشلار کو رولتلی آلقیشلار ایله فخری صدارته سه چیلدیلر.

١٥ نجی فرقه قورولتاینك یکونلاری حقنده قضا فرقه قومیته‌سنك کاتبی یولداش سارکیسیان معروضه‌ده بولوندی. «خارجی قاپیتالیزمانك ترقیسی کون به‌کون آرتماقله برابر قاپیتالیزمانك ثمره‌لشمه‌سی کورونیر. ١٥ نجی فرقه قورولتایی قید ایتمشدرکه قاپیتالیستلر آراسنده رقابتك آرتماسی و قاپیتالك ثابتله‌شمه‌سی یکی و دنیا محار به‌سنك اولاجاغی شبهه‌سز کوسترمکده‌در. یکی حاضرلانان محاربه‌نك تهلکه‌سی علیهنه جهان پروله‌تاریاسنك و خصوصا شورالار ئولکه‌سی پروله‌تاریاسنك حاضر لیغی قورولتای قید ایتمشدر.

قاپیتالیست ئولکه‌سنده سرمایه‌نك مرکز لشمه‌سیله برابر فعله صنفنك آغیر بر وضعیتده یاشامالاری، عمله‌لر آراسنده ایشسزلر ساینك آرتماسیله برابر اونلارك کوچه‌لره براقیلماسی بازارلرده قاپیتالیستلر آراسنده‌کی رقابتلر نتیجه‌سنده صنایع استحصالنك اوجوز استحصال ایدیلمه‌سی و عمله‌لرك موزدونك اکسیلمه‌سی کبی مسئله‌لر فعله صنفی آراسنده سیاسی و انقلابی فکرلر اویانتاقدادر.

شورالر حکومتنك سیاستی نتیجه‌سنده شورا امکچیلرینك اقتصادی حالنك یاقشی لاشدیریلماسی خصوصاً فعله‌لرك ٧ ساعت ایش کونینه کیچمه‌سی دنیا پروله‌تاریاسی آراسنده بیوك نفوذ قازانمشدر.

انکلتره حکومتنك شورالر نماینده‌لری اوزرینه یاپدیغی باسقینلق و قومونیستلرك تعقیبی یکی محاربه توره‌دیلمه‌سنی میدانه چیقارمشدر.

قومونیست بین‌الملنك سیقیالری فعله حرکاتلارینه رهبرلك ایتمکده‌در.

بالتلانان پارلمان سه‌چکیلرنده قومو نیستلرك چوق سس آلماقلاری اونی کو ستریرکه دنیا زحمتکشلری سیاسی جهتجه محکمدر.

دنیا عمله‌لرینك اتفاقنی پوزماق و فعله‌لری سیاسی فکردن داشیندیرماغا چا لیشان ٢ نجی بین‌الملل رهبرلرینك پرو له‌تاریا قارشوسنده نظردن دوشمه‌لرینی یولداش **بوخارین** اوز معروضه‌سنده آچیقجا کوسترمشدر.

فرقه‌مزك ١٥ نجی قورولتایی مخالفت توره‌دوب فرقه‌ده منشه‌ویزمه یاراتماق ایسته‌ین مخالفلره قارشی قطعی قرار ویر مشدر.

قورولتای اوز قرارینده کندده صنفك طبقه‌لشمه‌سنی قید ایدوب کندك یوقسول و اورتاباب طبقه‌لریله اتفاق یاراتماق ایله قولاقلار علیهنه کسکین مبارزه آپاران فرقه‌مزه کنیش زحمتکش کتله ایله بر برده له‌نینچی قوموسمولار فرقه‌مزه یار دیمچی اولمالیدر. قوموسمولك قارشیسندا دوران کندك اورتاباب و یوقسول تصرفا تلارینك قولله‌قتیولشمه‌سی‌و اونلارك قوتو په‌راتیفلشمه‌سی مسئله‌سی حال حاضرده‌کو روله‌جك اساس مسئله‌لریمزدندر. بو ایشه قوموسمول کندلرده اهمیت ویرمکله بونلار حقنده‌کی قصانلاری آرادان قالدیرمق ایچون فرقه‌نك یاردیمچیسی اولمالیدر.

شورالر ئولکه‌سنده سوسیالیست سیقتو رینك غالب کلمه‌سنی قورولتای اهمیتله قید ایدوب ایستر ئولکه‌مزك صنایعنشدیر یریلمه‌سنده، ایستر کند تصرفاتنك آیاغا قالدیریلماسنده غالبیتمز واردر.

له‌نین قوموسمولی کندك مدنی انقلابنده غالب کلمك اوغورنده ١٥ نجی فرقه قورولتاینك بوتون قرارلارینی حیاته کچیر مه‌لیدر.

قوموسمول فرقه‌نك معاوینی اولماقله برابر، فرقه‌مزك بوتون ایشلرنده فعالیت قازانمالیدر. ایستر بیوروقراتیزما ایله مبارزه ایشلرینده، ایستر سوسیالیزما قورولوشی ایشلرنده ٨ نجی قوموسمول قوقرانسی فرقه‌مز کبی جواب ویره‌جکنه شبهه ایتمیرم.

یولداش سارکیسیانك معروضه‌سنه شدتلی و کورولتولی آلقیشلار ایله ختام ویریلدی. معروضه‌یه دائر قبول اولونان قرار نامه‌ده له‌نین قوموسمولی فرقه‌نك ١٥ نجی قورو لتاینك بوتون قرارلارینه تماملیه شریك اولوب ١٥ نجی قورولتاینك چیقاردیغی قرارلاری حیاته کچیرمکه سوز ویریر.

٨ نجی قضا قوقرانسی فیورال آینك ١١ ندن ١٥ نه قدر دوام ایتدی. آخر نجی اجلاسده انتخاب اولونان قومیسیون لار معروضه‌لره عائد چیقاردیغی قطعنامه له‌ر قورولتای طرفندن باقیلاراق علاوه‌لر ایدیلدیکدن سوکرا قبول اولندی سه‌چکی له‌ر کلدیکده ایروان قضا قومیته‌سی عضو لکنه ٥١ نفر نامزدلکه ایسه ٢٢ نفر بونلاردان قضا قومیته‌سی ٤ نفر تورکلر دن عضولیکه ٢ نفرنامزدلیکه تورکلردن ١ نفر روسلاردان عضو اولاراق سه‌چیلدی.

عموم ارمنستان قوموسمول قورولتاینه ٦٥ نفر نماینده انتخاب اولناراق بونلاردان ٦ نفری تورکدر. بویله‌ده قوقرانس اوز زحمتلرینه ختام ویردی.

او. س.

قادینلرك بین‌الخلق قوممونیست گونی ـ ٨ مارت

بوتون قضا قومیته‌لرینه

بو ایل قادینلرك بین‌الخلق قوممونیست گونی ـ ٨ مارت دولایسیله بزم سیاسی اساس ایده‌جکلرمز زحمتکشلرك کنیش کتله‌سنده فرقه‌نك قباغنده قویلمش معارف ـ مدنیت انقلابی، قادینلارك قورتولوشی، زحمتکشلرك بین‌الخلق برلیکی، محصولاتك ثمره‌لشدیریلمه‌سی، کند تصرفاتنك قولله‌قتیف لشدیریلمه‌سی؛ شهر ایله کند رابطه‌سنك صیقیلشدیریلمه‌سی؛ فعله و کندلی قادینلر ایله زحمتکش قادینلارك کنیش کتله‌سنی فرقه‌نك اطرافنده توپلانماسی. شورا قور لوشنه و اولکه مدافعه ایشینه اونك فعال صورتله اشتراك ایتمه‌سی کبی عملی، مسئله‌لر اولاجقدر.

شهر شوراسنك یکی صدری
یولداش وارتان مامیقونیان

ا. ق. (ب) ف. مرکزی قومیته‌سی قضا قومیته‌لرینك و شورا، همکارلار، قو ئوپه‌راتیف تشکیلاتلارینك و قوممونیست فراقسیالارینك نظر دقتنی اوایش اوزرینه جلب ایدیرکه ٨ مارت دولایسیله همین بوتون تشکیلاتلار فعله کندلی قادینلارك زحمتلری و یاشایش مسئله‌لرینه عائد بوتون زحمتلریمزك ثمره‌لرینی و یاپمش اولدیغمز فتوحاتلاری بر آرایه توپلایوب کچن ایلك مارت ٨ نده ویریلن قرارلار نه‌اولچی ایله حیاته کچیریلدیکنی یوقلاما ایتمه‌لیدرلر.

فرقه تشکیلاتلاری، شورالر، اجرائیه قومیته‌لری، همکارلار اتفاقی تشکیلاتلاری صدارت هیئلری اجلاسلارندا قادینلارك زحمتلری و یاشایشی مسئله‌لری (عملی زحمتلره اشتراك ایتمه‌نك اولچیی، قباغا چکمك، اونلارك یاشایشینی یاخشیلاشدیرن اداره‌لرله تأمینی) و الده ایتدیکمز ثمره‌لر و آچیقلار حقنده معروضه‌لر ایشتمك ا. ق. ف. مرکزی قومیته‌سی تکلیف ایده‌رك آشاغیده یازیلان اساس ایده‌جك لریمزك لزومنی نظره آلوب قادینلارك یا شایشنی یاخشیلاشلایران و زحمت شرط لرینی یونکوللشدیره‌ن دوزکون واسطه‌لر تاپشیریر:

[illegible] استحصالاتدا فعله [illegible] دان یکی قادرولر جلب ایده‌رك اونلاردان قابله ایشچیلر حاضرلاماق.

ب) رهبرچی اورغانلاردا ایشجی و کندچی قادینلارك قباغا چکمك ایشینه قوه ویرمك.

پ) کندلی قادینلاری قوئوپه‌راتیفلشدیر مك ایشینه قوت ویرمك (خصوصیله ار منستان کند تصرفات قوئوپه‌راسی و ار منستان ئه‌و صنعتکارلاری قوئوپه‌راسیاسی خطی ایله).

ت) قادینلارك استحصالاتدا و اجتماعی زحمتلرده ایشلرینی یونکوللاشدیرن و تا مین ایدن مؤسسه‌لری کنیشلتمك (اونلا ری محکملتمك).

قرمزی اوردونك

اون ایللك بایرامنه حاضرلاشیك

آخر وقتلرده بین‌الخلق وضعیت کسکین لشمش و چتینلشمشدر. بز یکی ایمپریا لیست محاربه‌لری هده‌سی قارشیسیندا دو روروق. قاپیتال برتجیلاری شورالاراتفاقنا هجوم ایدوب اونی داغیتماغا حاضرلاشیر لار.

حرب قورقوسی قرمزی اوردونك و شورالار اتفاقنك قوه‌لرینی اون قات آر تیریر. بوقورقو شورا دولتی امکچیلرینی قیرمزی اردو ایله داها سیق بیرلشدیروب یاقینلاشدیریر. شورالار اتفاقی ایشجی و کندلیلرینك و بوتون دونیا امکچیلرینك نظر دقتلری قرمزی اوردونك قدرتینی و حربی باجاریغنی محکملتمکه طرف چیو بریلمشدر.

قیرمزی اوردونك اون ایللك بایرامینا بز بو شرطلر ایچینده یاقینلاشیریق.

بو یوبیله‌ی، بو بایرام کرك امکجیلری اونلارك سلاحلی پیشدارلاری ایله داها محکم بیرلشدیریرسین. هر بر امکجی و هر بر کندلی قیرمزی اوردونك کچمیش قهرمانلقلارینی بیلمه‌لیدر. قرمزی اردونك حربی عنعنه‌لرینی، اونك کچمش قهرمانلق لارینی بیلمه‌لیدر. قرمزی اوردونك حربی عنعنه‌لرینی؛ اونك سیاسی و حربی تربیه ده قازاندیغی موفقیتلری کنیش صورتده کتله‌یه معلوم ایتمه‌لیدر. ایشجی وکندلیلر ایشجی و کندلی قادینلاری کرك قرمزی اوردونك یاشایشی، تعلیمی و دولانیشیله آشنا اولسونلار. ئوز نوبه‌سنده قرمزی اوردو نفرلری‌ده فابریقالار، زاوودلار ادا ره‌لر ایله سیقی رابطه باغلامالیدرلارکه، سوسیالیزم قورلوشنك موفقیتلرینی ئوزکوز لریله کوروب یقین ایتسینلر.

یوبیله‌یك، بابرامیك مهم مسئله‌سی شورا دولتنك حربی قوه‌سنی نظردن کچیرمك در بو ایشیك مرکزنده قرمزی اوردو اولاجقدر. او امکجیلره ئوز موفقیتلرینی کوستره‌جکدر، اونلارك قارشیسیندا ئوز حربی قدرتینی، باجاریغنی، و شورالار اتفاقنی مدافعه‌یه حاضر اولدیغنی بیلدیره جکدر. قرمزی اوردو ایله بر جرکه‌ده باشقا امکچیلرده ئوزلرینك حربی حاضر لیقدا یتیشدیکلری موفقیتلری کوستره‌جك لردر. آخرنجی آیلاردا بو چوق آرتق که‌نیشلنمشدر. و بایرام کونی، که‌نیش امکچی کتله‌سینك حربی قدرتنی یوقلاماق کونی اولاجقدر.

بو حربی یوقلاما، نظردن کچیرمه قو موسمول ایچون و بوتون ایشجی کندلی کنجلری ایچون داها اهمیتلیدر. قرمزی اوردو ئوزینه بونلاردان یولداش آلوب جرکه‌لرینی دولدورور. بونلار ـ ایندیکی قرمزی اوردو نفرلرینك و قوماندانلارینك یرینی دوتاجاق عوضلردر.

وطنداش محاربه‌سی ایللرنده و اونداان سوکرا قرمزی اوردو جرکه‌لریندن میلیو نلارلا ایشجی و کندلی کچمشدر. اون و یوز مینلرله وطنداش قرمزی، اوردو ایله برابر وطنداش محاربه‌سی یولینی کچمشدر. قزیل بایراق نشانی و باشقا مکافات و هدیه‌لر آلان بر چوق قهرمان لار و یکیتلر واردر.

یوبیله‌ی کونلری، قرمزی اوردو جر که‌لریندن ـ کچن بوتون امکجیاری حر کته کتیرمه‌لیدر. قرمزی اوردو بایرامی بوتون ایشجی و کندلیلره یاقین اولدیغنی کبی، کرك اونلار ایچون ایکی قات عزیز و یاقین بایرام اولسون.

قوی ایولرینه بوراقیلمش قیزیل اردونك احتیاط حصه‌لری، قوماندانلاری و سیاسی ایشجیلری یکیدن ئوزلرینی ئوز دوغما عائله لرنده حس ایتسینلر.

قوی اونلار قرمزی اوردو ایله یکی ـ یکی علاقه‌لر و رابطه‌لر دوزه‌لتسینلر.

قرمزی [illegible] اوردونك یوبیله ایل دونومی یاقیندر.

اوکا حاضرلاشماق زمانی یتیشمیشدر. برلرده‌کی فرقه، شورا، همکارلار ـ قو موسمول و حربی تشکیلاتلارینك عهده سینه بوبایراما حاضرلاشماق و اونی کیچر مك وظیفه‌سی حواله اولونور. قولوبلار، قرائت کومالاری، قرمزی بوجاقلار، کندلی ایولری، سپورت تشکیلاتلاری و غیرلری کرك درحال قرمزی اردونك اون‌ایللیك بایرامینا حاضرلاشماق ایشلرینی ایندیدن کنیشلتسینلر.

ث) کند تصرفاتنی قولله‌قتیفلشدیرمك حقنده کند قادینلاری آراسنده مخصوصی کنیش تبلیغات آپارماق.

ج) قادینك قورتولوش ایشنی تاخیره سالان باشایش واقعه‌لری علیهنده‌کی مبارزه‌یی قوه‌لندیرمك.

چ) قیزلرك صنعتی تربیه، صنایع و گنجلر اتفاقنه جلبی ایشنه قوه ویرمك.

ح) قباغا گلن ایشجی قادینلاری و اجتماعی ایشلرده تجربه گورمش کندلی قادینلاری، برنجی نوبه‌ده باتراق و یوقسول قادینلری فرقه صیره‌لرینه جلب ایتمکه قوه ویرمك.

بوقاریده یازیلان مسئله‌لر اطرافنده ۸ مارت بایرامك ابتدائی حاضرلق دوره‌سنده تبلیغ-تشویقات شعبه‌لرینك اشتراکی ایله تبلیغات قامپانیاسی کچیریلمه‌لی.

مارت ۸ قامپانیاسنه فعال صورتده اشتراك ایتمك دولایسیله قادینلارك کنیش کتله‌سنه آڭلاقلی یازیلر نشر ایتمك ایچون ا. ق. (ب) ف. مرکزی قومیته‌سی مطبوعات ایله نشریات اداره‌لرینك نظر دقتنی جلب ایدیر.

بو زحمتلره رهبرلك ایتمکدن اوتری محللرده فرقه قومیته‌لری نزدنده قضا قومیته‌لرینك، قضا قومیته‌سی شعبه‌لرینك، همکارلار اتفاقنك، قوئوپه‌راسیانك، گنجلر اتفاقنك، قادینلار یاشایشنی یاخشیلاشدیران قومیونك و اولکه‌یی مدافعه -آویاکیمیا نماینده‌لرندن عبارت قومیونلر تشکیل ایتمك لازمدر.

همین قومیونه آپاریلان زحمتلرك نتیجه‌لری حقنده آپرل آینك بریندن کج اولماماق شرطیله ا. ق. ف. مرکزی قومیته‌سنه یازی ایله معروضه تقدیم ایتمه لی‌درلر.

ا. ق. (ب) ف. مرکزی قومیته کاتبی:
گولی کوخیان

کندلی قادینلر شعبه‌سی مدیره‌سی:
و. تاراقجییان

شورالار أرمنستانی قضا و کندلرینده

کنده برنجی قادینلار قورصی

۱۹۲۸نجی ایل ۹ یانواردا بیوکویدی کندینده ناحیه فرقه قومیته‌سی تشبثاتیله قادینلار قورصی آچیلمشدر. بو قورصده گونده ۳ ساعت درس دوام ایدیر. هر ایشك اولنده چتینلك اولدیغی کبی بو قورصك برنجی گونلرینده‌ده چتینلکلر قباغه گلدی. هله قادینلار مسئله‌سی او لدیغندن کنده بونی حیاته کچیرمك او لدقجه چتیندر. بو چتینلکی آرادان قالدیر ماق ایچون ناحیه فرقه قومیته‌سی عموم فرقه اجلاسنی دعوت ایدوب عضولری مجبوری صورتده «اوز یولداشیگزی قور صا دوام ایتدیره‌جکسگز» دی‌یه قرار قبول اولندی. همین قرار حیاته کچیر یلمکده‌در.

فرقه‌جیلر بیطرفلره نمونه اولدقلارندن بیطرف کندلیلرك‌ده آرواتلاری قورصا اوقومغه گلیرلر بو قورص قادینلاری جها لتدن قورتاراراق آرواتلارك‌ده کشیلر کبی اجتماعی ایشده اونلاره ویریلن حقوقی آڭلایه‌جقلردر. قورصك دوامی و کنیش کندلی آرواتلارینی دها زیاده بو ایشه جلب ایدیلمه‌سی آرزو ایدیریز.

ب. ویدیلی

نظره آلنمالیدر.

قازاق شهرینده تصرفات شعبه‌سنك چا لشماسی سایه‌سنده ۵-۶ یرده تازه داملار تیکیلمشدر هر بری ۱۳-۱۰ اوتاقدن عبارتدر. آنجق بها قیمت اولنوب. کچن ایل تیکیلمش اولمیان وقت خصوصی ایو صاحبلری ایکی اوتاق ایله بر قوخنایی ۱۰ منات کرایه‌یه ویربردی آنجاق بوایل تصرفات شعبه‌سی تازه داملاری ۲۰ منات ایتدیکده خصوصی ایو صاحبلری‌ده آر تیرماغه باشلادیلار آشاغی معاش آلان خدمتچیلر قطعی اولاراق قوسی چاتماز بونی گوره‌ن خصوصی ایو صاحبلریده اوتاق کرایه‌سنی بهالاندیرماغه باشلایوبلار بو حالده تصرفات شعبه‌سی آشاغی معاش آلان قوللوقچیلاری نظره آلوب لازمی چاره‌لر دوشونملیدر.

ح.

حکیم لازمدر.

قضاق قضاسنك قراق کمه‌ن کندی و آشاغا کمه‌ن کندی ۱۰۰۰-ایودن عبارت اولوب قضادن ۲۲ ویرست او زاقدر.

بو بویوکلیکده کنده بر ناخوش او لدقده قضایه و یاخود دائره‌یه آپارماغه مجبور اولورلار. دائره‌ده اولان فلدشیر ناخوشلاره بر او قدر فکر ویرمه‌دیکی ایچون ناخوشلار شهره گیدیر.

قضا صحیه شعبه‌سی بر برینه یاقین کند لری نظره آلوب قراق کمن کندینده بر صحیه منطقه‌سی آچمالیدر.

ز. ح.

جدی مبارزه لازمدر

دلیجان قضاسنك تورك کندلرنده با لاردان قالمش عادتلردن بیرده پوللی طوی مسئله‌سیدر. چولون ایشی قورتارار-قورتارماز کند قولاقلاری طوی چالدیر مق بهانه‌سیله کندك اورتاباب و یوقسول طبقه‌لرینی سویماغه باشلایورلار.

طوی چالدیرمق بیوك بیر عادت او لدوغندان آزیندان ایلده ۲۰-۲۵ طوی چالنان کندلر اولوب. بتون قومشو کند لر دخی طویه تکلیف ایدیلیر. هر کند لیه اوز «آد و شأنه لایق» آزیندان ۱۰-۱۵ منات لازمدرکه چاغریلمش طو یدا صرف ایتسینك. اودرکه بیله‌نچی عا دتلر نتیجه‌سی اولاراق کندك اورتاباب و یوقسول طبقه‌سنك جبنده پولی قالمادیغندان اوز نالوق و سغروته پوللرینی وقتنده ویره بیلمه‌یوب آخرده جریمه (په‌نیا) ایله ویر مگه مجبور اولورلار.

بیله‌نچی عادتلر ایله جدی مبارزه‌یی آپاراتلار برنجی صیرادا فرقه و قومسومول عضولری علی‌الخصوص کندك مدنی معا رف باشندا دوران معلم یولداشلار اولمالیدر.

حالبوکه طوی زماننده گوستریلن اتفاق و تشکیلات باشچیلرندن چوقلاری جماعتك آراسنه دوشوب بیر شاواش دیه جماعتی سویدوقلاری گوزه چارپیر.

بو باره‌ده ناحیه و قضا فرقه قومیته لرینك نظر دقتنی جلب ایدرمك آڭلاقلی تشکیلات عضولرینك بیله‌نچی کهنه عادتلر ایله مشغول اولمالارینه یول ویرمه‌مه‌لری آرزو اولنور.

محمد سرداراوف

قارغا یوواسی

۱۹۲۶ نجی ایلك اوللرنده موهومات باشچیلارندان محمد حسن ملا ابراهیم اوغلی چایچی دکانی آچمش و بو بهانه ایله آلیش ویریش دخی ایدر. بو حریف کندلیلری سویماغك یولنی چوق یاخشی بیلور. نماز قیلاندا بو آدامك الله اکبر نعره‌سی لاپ کندك او باشندا ایشتمك اولور. بوندان بر نیچه آی قباق خچا پارافلی رشید عبدالله اوغلنك باجیسی هانسنك بیری ۲۸ و بریده ۲۰ یاشندا اوغلی اولا-اولا اوزینه صیغه ایدوب او شاقلارینی دخی نوکر کبی ایشله‌دوب و ایوده‌کی آروادینا اولمیان أزیتی ویریر. بو حریف بو بر ایل عرضنده دکاندا بر چوق پول قازانوب لاپ قولاقه دونوب چونکه آلیش ویریشی پامبوق ایله ایدیر پامبوغك پوتی ۲-۳ مناتدان آرتقا آلمیر. ایمدی ایسه اوروجلق ایچون کنده ملا کتورمك و مرثیه اوقوتماق تشبثاتنده بو لونور. گونده دکانده تبلیغات آپاروب ده‌ییر: «آی کشیلر اوروجلق گلیر بز لاپ کافره دونوب آللهك یوزندن دوشمیشك

هر حالده بزه بر ملا لازمدر» من او زوم ۵۰ منات ویریرم قالانی ایسه ویرن چوقدر مثلا محمدعمم، هاشم قاغام، قر بان علی کیروم، محسن بی‌بی اوغلوم هاموسی-هاموسی بونلارك آتاسنا رحمت ایتسون. هاموسی دین اوغرونده ویرمندر. آنجق سیز کندده بش اوچ لوتولارا با قمایك کیچی‌بی-کیچی، قویونی-قویون آیاغندان آسارلار.

جماعته بو آدامك سوزلری تاثیر ایدوب هاموسی بردن صاغ اول-صاغ اول محمد حسین الله سنك و سنك کبی لرك سایه‌سنی بوزماسون. آدیك محمد و آتاڭك آدی ابراهیم خلیل سڭا کومك اولسون.

بو سوزلر اوستنه محمد حسین مرزه جعفره دونوب آی مرزه - آی مرزه آتاڭا رحمت بو آداملارك ئولنلرینه بر فاتحه اوقو. مرزه بویانا باقوب اویانا باقوب اوقومادی چونکه ... و گوزلرینی محمد حسینه دوندیروب اشارت ایتدی (یعنی بورادا آدام وار).

جماعتی بویله موهوماته طرف چکه نی و سویان حریفلرك دیشلرینی لاپ آت کلباتنی ایله چکمك و اونك آلیش‌ویریش مقصدیله تیکدیگی قارغا یوواسنی داغتماق لازمدر.

گور اوغلی

قومسومول ئولوم قصدینده

ویدی باسار ناحیه‌سنك چاموشباسان کندینده ل. ق. ك. اتفاقنك عضولریندن مصطفی نامنده بر شخص مذکور کند ساکینلری بر نیچه قولاقلارك هانبکه رسیل، تاگروبردی کبی آداملارك او کرتمه‌سی ایله، نجف قلی آدنده بر اوغلانا سؤ قصد یاپمشدر.

یاراماز مذکور اوغلانی ئولدیرمك ایچون بویله بر حیله دوشونمشدر. نجف قلینی اودون قیرماق بهانه‌سیله کنددن کناره آپاریر. و اورادا اونا دیور کل سنك بوزیگی من قیرخیم، سنده منم بو زیمی قیرخ. اوغلان بورادا ایشی بیلوب «سن منم بوزیمی باجارمازسان قیرخاسان» جوابنی ویریر.

مصطفی فرصتدن استفاده ایده‌رك کور کمه‌ز بر «خنجل» ایله باشینا دوکوب آغیر بر صورتده یارالایور. بونلارك سلرینی ایشیدن بر یولچی هاوارا گلد یکده اوغلان قاچمشدر. یارالی خسته‌خا نه‌یه آپاریلمشدر، مقصر ایسه انضباطی اداره طرفندن حبسه آلنمشدر. بو جور قومسومولارك قولاقلاریندن دوتوب یایرا تولالمالیدر.

نه‌ریل

دوقتورك مصلحتلری

سؤال.-دوقتور یاشندا برچوجوق وجود جه بستون ساغلام اولدیغی حالدا بردن بره ساعت ۴ ده ناخوشلانوب ساعت ۸ ده ئولـه، ئولندن سوڭرا گوگسی و قارنی اوزرنده یانیق کبی خاللار کورینه تا خوشلغی نه اولاجقدر؟

جواب.-ناخوشی کورمه‌دن محقق سوز سویلمك چتیندر. فقط، آڭلاشیلان اوشاق مسری آغیر بر خسته‌لکه دوچار اولمشدرکه ۴ ساعت ایچنده ئولمشدر. مسری ناخوشلقلر بعضاً وجود اوزرینه یانیق کبی خاللار حصوله کتوریرلرکه آنجق ئولندن سوڭرا گوزه چارپیر. بو جور مسری ناخوشلق اولابیلر اینفلونسادر اولابیلر بعین التهابی‌در و الخ...

سؤال.-بعض آروادلارك هیچ اوشاغی اولمیر. سببی نه‌در، معالجه اولونورلرسه اوشاقلاری اولارمی اولمازمی؟

جواب.-اوشاق اولماق ایچون یالگز آروادك ساغلام اولماسی کافی دگلدر. همین آروادك اری‌ده ساغلام اولمالیدر. یعنی کشینك تخمنده مایا بولنمالی‌که آر وادك یمورتاجغی ایله برلشوب ثمره حا صل ایده‌بیلسون. زوجلرك (آروادك) او شاغی اولمادیغی حالدا قباقجه‌دن زوجلر دن هانکسینك سببله‌در کشینك‌می آروا دنمی آڭلاماق لازمدر. اوندان اوتری اولا کشینك تخمنی معاینه ایتمك لازمدر، اگر اونك تخمنده کافی درجه و بیوك مقدارده مایا وارسه او وقت دیمك اولور

عموم اتفاق قوممونیست (ب) ف. مرکزی قومیته‌نك شعارلری

۱-پروله‌تار قادینلارك یوز مین لرجه اردوسی، استحصالاتك ثمره لشدیریلمه‌سی ایشنده فرقه و همکار لار اتفاقی ایچون محکم بر استناد گاهیدر.

۲-ایشچی قادین! ۷ ساعتلق ایش کوننی کچیرمك ایشینه یاردیم ایله او؛ سڭا زحمتك کمیتی و معارف-مدنیتك ساحه‌سنی اوجالتماغا امکان ویره‌جکدر.

۳-عموم شورالار اتفاقك پروله تار قادینی، سنی غالبیتله سوسیالیزمه و تمامی آزاده‌لکه چیقاران لنین فرقه‌سنك صیره‌لرینه گلیگز!

۴-ایشچی قادینلار، استحصالاتك مایا قیمتنی ایندیریگز، اشیالرك قیمتنی آشاغی سالیگز، اقتصادی موفقیتلریمزك ضمانتی اودر.

۵-ایشچی قادین، شورا حظی خارجنده یاشیان قادینلر ایله رابطه‌نی محکملت، سوسیالیست شورالار اتفاقنك مدافعه‌سنی محکمله‌تیگز!

۶-ایشچی قادین، اوقتیابرك ۲ نجی اون ایللك دونومنده پروله‌تار قادینلرینی جسارتله رهبرچی زحمت شورالارینا جلب ایتمه‌که چالیشگز.

۷-ایشچی قادین، کندده بویوك قولله قتیف تصرفاتلار یاراتماق ایچون فرقه‌یه و شورا حکومتنه کومك ایله!

۸-استحصالات قوئوپه‌راسی واسطه‌سیله کند تصرفاتنك عمومیلشدیریلمسنه دوغرو یول آچیگز!

۹-کندچی قادین؛ سواد اوکره‌ن، معا رف-مدنیت ساحه‌گی اوجالت‌که تصرفا تگی یگی اساسلارلا قوراسان.

باتراق قادین، بوتون باتراق-یوقسول آقتیفلر ایله برلکده کندی بیوك قولله‌قتیف تصرفات یولیله قباغا آپارماغینا کومك ایت!

۱۱-یگی حیات قوران و سوسیالست قورلوشنی قباغا آپارماسنه کومك ایدن ایشچی و کندچی قادینلرینه و شرق زحمت کش قادینلارینه ۸ مارت کوننده آتشین سلاملار!

۱۲-ایشچی و کندچی قادینلر؛ سوسیا لست قورلوشی ایشنده گنج قادینلره کو مك ایدیگز.

۱۳-ملکه‌دار و سرمایه‌دارلاردان ضبط اولنان سرایلاردا پروله‌تاریا اوشاقلاری ایچون چوجوق باغچه‌لری و اوشاق یوردلاری قایریرز.

۱۴-شرقك خلاص بولان قادینینه داها زیاده دقت و کومك ایتملی.

۱۵-زحمتکش قادینلارك حیاتی قورتو لوش ایشنه قوت ویره‌لم.

۱۶-یوق اولـون شرق قادیننی اسیر ایدن قانون و قاعده‌لر. یوق اولـون قادین آل‌ویری، قالیم (باشلق)، چادرا، اوردا، کیبن وحدبلوغه چاتمیانلارك ازدواجی.

کندلی یولداشلار! کند تصرفاتنه دائر جمله مسئله‌لر حقنده اوز اوچاستوق (قضا) آغرانومیگزه مراجعت ایده‌رك؛ کند تصرفاتی حقنده اوقوماقلا مصاحبه‌لر دوزه‌لدك! کندیگزده یاخود قومشو کندلرده‌کی تجربه تارلالارینا و آغرانوم منطقه‌لرینه کیدك!

بونلارك هاموسی اوز تصرفاتگزی دوغرو درست آپارماغی سیزه اوگره‌ده‌جکدر.

صنایع و برده رنجبرلك جانلاندیریلماز ایسه جماعت یاشایشنی قوممونا قانونی اوزره قورماق اولماز.

آنا ایله اوشاغك محافظه‌سی

اوقوجیلرمزدن بر چوقلاری آنا ایله اوشاغك محافظه‌سی نه اولدیغنی بیلمیرلر. اونلاری شورا حکیملکنك بو شعبه‌سیله تانیش ایتمك آرتق اولماز ظن ایدیریم. معلومدرکه قوجالاری و ئوللری عوض ایدن یگی دوغان اوشاقلاردر.

بر دولت نه قدرده قوه‌لی اولسا، او دولتك خلقنده دوغوش واقع اولمازسا همین دولتك موجودیتی اوزون دوام ایتمز. بر شئی‌ده اونوتمامالی. یالگز دو غوش کافی دگلدر. دوغانلار یاشار و بیویوبو ئولمزلرسه، دولت او زمان قوه‌لی اولور. دوغان اوشاقلار نه قدر آز ئوله سین دولتك اهالیسی او قدر چوق او لوب قوتی‌ده بیوك اولور.

دولت همین جانلی قوتی هارادان آلیر، همین اوشاقلاری دولته ویرن کیم درکه بیویوبده دولتك قوتی تشکیل ایدیرلر؟-البته‌کی قادین، آنا. دیمك‌که دولتك قوتی تشکیل ایدنلری ویرن آنادر.

جماعت ساغلام و یاخشی او شاقلارا مالك اولماق ایسته‌رسه، یاخشی آروادلارا و آنالارا ده مالك اولماسی لازم گلیر.

دیگر جهتدن هر وطنداش گوزلجه بیلملی‌که آرواد اوز آنالق وظیفه سنی ایفا ایتمکله، اوشاق دوغوب اونی بیوتمکله اجتماعی بیوك بر ایش کوریر.

جماعت ایچون، دولت ایچون اوشاقلار قیمتلی ایسه بر اوقدرده آنالار قیمتلی اولمالیدرلر.

ایشته سبب اودرکه شورا حکومتی اوشاق و آنا حقنده علاحده دقت و حمایه گوستره‌رك آنا ایله اوشاغك محا فظه‌سی ایچون بر شورا حکیملك شعبه‌سی آچمشدر.

همین دقت و حمایه نه‌دن عبارتدر؟ -آنالار ایچون مخصوصی موسه‌لر آچمشدر، حامله قادینلر، اورادا، نه جور یاشاماق‌که اوشاق ضایع اولماسون، دو غیش منتظم صورتده واقع اولسون.

همین موسه‌لر مصلحت یری آدلا نیرلار. اورادا قادینا نه جور یاشاماق‌که خسته اولماسون، یگی دوغان و ممه امه‌ن اوشاغی نه جور ساقلاماغی ایضاح ایدیر، سودی اولمیان آروادك اوشاغنه گوزلجه حاضرلانمش سود ویریر و او نلارا مجانی اولاراق سواد اوکره‌دیرلر. اورادا یوقسول آروادلارا اعانه ویریر و آروادی ایله اوشاغنی ترك ایدن کشی علیهنده حقوقی نه جور محافظه ایده جکنی اوکره‌دیرلر. او قادینلرکه قوللوقا گیدیرلر و سود امه‌ن اوشاقلارینا باقماق امکانه مالك دگلدرلر، اونلار ایچون شورا حکیملکی چوجوقلار ئووی آچمش در، آنا ایشنه گیدنده اوشاغی ساقلاماق ایچون اورایه گتوریر و آقشام اوستی ایشدن قایداندا آلوب ئووینه آپاریر.

زحمتکش حامله قادین حامله‌لیکك آخر و اوشاق دوغدیغی ایلك آیلارنده تعطیلدن استفاده ایده‌رك یگی دوغان او شاق ایچون اعانه آلیر. والحاصل شورا حکومتی هر واسطه‌یی اله آلیرکه آنا ممکن اولدیغی قدر حامله‌لیك وقتنی مو فقیتلی کچیرسون، موفقیتله دوغسون و اولادینی-دولت وطنداشنی موفقیتله بیوتسون اوشاق دوغماق و اونی بیوتمك وظیفه سنك نه قدر اهمیتلی اولدیغنی آنالاردان چوقیسی بیلمیر و اودرکه ضررینی هم ئوزلری و همده اوشاقلاری چکیر. آنجق بیلیجی، ادراکلی آنانك اوشاغی تهلکه‌سز بیور و جمعیته لزوملی عضو اولور. همین مصلحت یرلری آنالار ایچون مصلحت و اوشاقلار ایچون معالجه یرلری‌درلر. اورادا اونك انکشاف ایتمه‌سنه، ناخوشلغنه دقت ایدیر و جدی بر ناخوشاق وقوعی حالندا معالجه ایدیر و تهلکه‌یی کچیریرلر.

هر اوقوجی آڭلامالی‌که آنا نه‌قدر علم و تربیه صاحبی اولسا اونك اوشاقلا ری‌ده او قدر آز ئولور. ادراکلی آنا اوشاغك ساغلاملغی نشانه‌سی‌در. و اوشاق لارك تلفاتی نه قدر آز اولسا تربیه کور مش جماعت‌ده او قدر بوکسك اولور.

اوقوجیلر! اوشاق ایله آنانك صحتنه دقت ایدیگز، اوشاق ایله آنایی حمایه ایدیگز. قادینلارا، مصلحت یرلرینه مراجعت ایتمك وحکیم نصیحتلرینه قولاق آسما غی نصیحت ایدیگز.

DURLU XƏBƏRLƏR

Həftə jeniliqləri

—Xəlk muarif komsarlıgının kollekijası jeni turq əlifba komitəsinin hejjəti 43 ʒəxsdən ibarət olarak təsqik etmiʒdur.

—Xəlk muarif komsarlıgı joldaʒ Jagybjanın rəjasəti altında bir komsjon intixab edərəq ona çocyk evlərinin vəzijətini jaxʒılaʒdırmakla məʒgyl, olmak tapʒırılmıʒdır.

—Irəvan ictimai tə'minat sandıgı qəçən dekabir və janvar ajlarında aʒagıdaqi əa'nələri vermiʒdur.

Çalıʒmaga muvəkkəti kabil olmyjanlara (30763) manat 15 kəpəq, jeni dogan yʒaklara bir dəfədən cəhaz olarak (7184) manat 78 kəpəq, jeni dogan yʒaklara jeməq pyly olarak 15665 manat 7 kəpəq, əluləri dəfn etməq uçun 2058 manat 25 kəpəq, iʒsizlərə əa'nə olarak 31398 manat 71 kəpəq, çalıʒmak kuvvəsini itirənlərə ʒiqəstlərə təkaid olarak 22089 manat və elənlərin ailələrinə 9872 manat 62 kəpəq.

—Ermənistan qənd təsərrufat kooperatif idarəsi ipəqçi qəndlilərə onlar tərəfindən təslim olynan tazə baramanın hər pytyna 10 manat muqafat verəcəqdur.

—Ʒyralar Ittifakının sənaji banqi Ermənistan sənajesinə birinci uç aj uçun 280,000 manat kredi təxsis etmiʒdur.

Həman mebləgdən 170,000 manat Leninakan tekstil (tokyjycy) fabrirasına 35,000 manat Ermənistan meʒə treʒtinə 40,000 manat mexaniq fabrikasına, 15,000 manat tyf denlən daʒı maqına ilə kajırmakdan ətru fabrika tiqməq uçun 20,000 manat hamz qibrit fabrikasının prozesini duzəltməq uçun verilir.

—Ictimaji tərbijə idarəsi məqtəblərdə joksyl ʒaqirdlər uçun məxsys para fondı təʒqil etməqdən ətri kəza icraijjə komitəsi nəzdində məsələ kaldırmıʒdır.

—Agro təbligat komisjony fevral ajının 10-ndan ehtibarən butun kəzalarda qənd təsərrufat kyrsları açacakdur. Kyrslara joksyl və ortabab qəndçilər kəbyl olynacaklar. Kyrslar rajon icraijjə komitələrinin hesabına saklanacakdur.

—Ictimaji tərbijə idarəsi qurd-jezid-muəllimlərinin qemijətcə zəjif oldyklarını nəzərə alarak onlar uçun kyrslar açmak ibtidaji zəhmətləri ilə məʒgyldur.

Kyrsların əsas məksədi jeni əlifbanı qitləviləʒdirməqdur.

—Ictimaji tərbijə idarəsi turq pedagozi texnikomy nəzdində pedagozi kyrsları açmak kərarə almıʒdır. Kyrslarda muəllimlərdən qemijjətcə zəjif olanlar kəbyl olynacak və kyrs bir aj dəvam edəcəqdur.

—7 saətliq fəhlə qununun duz qunluqlə tədbiki məsələsini tədkik etməqdən ətru N. Tiratyıjan, B. Kyznetsof və H. Baljan joldaʒlardan bir komisjon seçilmiʒdur.

—Ʒəhər ʒyrasının 10-nci plenym iclası ʒəhər ʒyrası sədri joldaʒ Aram Kostanjanın muraciatı uzərinə ony sədr vəzifəsindən azad edərəq jerinə joldaʒ Vartan Mamikonjanı intixab etdi. Joldaʒ Kostanjan jenə sədarət hejjətində kalır.

Qecə kyrslarında program jokdur

Zənqəzyr kəzasının kafan nahijəsində turqlərə məxsys by illəri 11 ədət qecə kyrsları açılmıʒdur. 6 ədədi sijası məarif ʒə'bəsi tərəfindən və 5 ədədi isə mərqəzi jeni əlifba komitəsi tərəfindən açılmıʒ dur by kyrsların 9 ədədi qəndlərdə 2 ədədi isə Lenin və Ʒaymjan naminə olan zavod dairəsində çalıʒan iʒcilər uçun açılmıʒdur. Kyrslarımıza kəza məarif ʒə'bəsi tərəfindən hələ by vəktə kədər dərs programları və jollar qestərilməmiʒ dur. Açılan kyrslara qəndlilər artık həvəslə iʒtiraq edirlər. Iʒcilər uçun açılan kyrsların vəzijətlərinə qəldiqdə, iʒcilər həmin kyrsa nədənsə sojyk qəlirlər hər iʒmendə məqtəbdə 4 nəfər okymakda dur. Və həmin dərsə dəvam edən fəhlələrin əqsərijəti irandan qəlmiʒ qənc jaʒlı fəhlələr dur.

Nədənsə byrada həmqarlar ittifakı tərəfindən okymakın və elmin nə dərəcədə juqsəq oldygyny fəhlələrə anlatan olmamıʒ dur. Muəllim dərsə qetdiqi zəman fəhlələrə jalvarmak ilə dərsə aparır. By muhumm məsələjə həmqarlar ittifakında heç fiqir verməjirlər. Kəza məarif ʒə'bəsi və həmqarlar ittifakı by jykarıda qestərilən acınacaklı məsələjə fiqir verməqlə kəza məarif ʒə'bəsi ilə birliqdə kyrsların noksanlarını aradan qəturməli durlər.

Qənc.

Bir daha

Allahverdi nahijəsinin ətrafındaqi turq kadın və kızları arasında ʒimdijə kədər lazımı iʒ aparılmaması həkkində dəfa'la gazetələrdə jazılmıʒdur.

Daha noksanları jazmak jersiz dur. Ʒimdijə kədər məqtəbdə okyjan qəndli kızları məqtəbi tərq etdiqləri qibi qənclər ittifakının cuzvi bir kısmını təʒqil edən kızlar dəxi təʒqilatdan əz xahiʒləri ilə çıkırlar. Lambalu məqtəbində qeçən sənə 15-kədər kız oldygy halda ʒimdi 2-3 nəfər kalmıʒdur.

Kəzanın Qəprulu qəndindəqi qənclər əzəqindən birdən 11 nəfər kız əz xahiʒləri ilə ittifak sırasından xaric olyndylar. By barədə kəza kadınlar ʒə'bəsilə firkə və qənclər komitəsinin nəzər dikkətini cəlb edərəq turq kadın və kızları arasında çalıʒmak uçun kadınlar tə'limatcısı qendərilməsini arzy ediriq.

Səjjar.

Ʒirqətin iʒləri zəjifdur.

1927-nci ilə kədər Kara-kıʒlak və onyn jakınındaqı qəndlilər əz pambyk məhsyllarını Eçmijazinə apararak və pyllarını nəkd alarak lazımı kədər əz ehtijaclarını tə'min edirdilər, laqin 1927-nci ildən ehtibarən Kara-kıʒlak ilə uç qənd birliqdə pambyk ʒirqəti təʒqil etdilər, fəkət qəndlilər lazımı kədər **bardan ala bilmədiqlərindən pambıkları kıʒa kədər kalarak evdə** çurujur.

Kıʒ zəmanı jenidən qəndlilər mal koʒyb pambıklarını aparırlar sada bardansız pambık kıʒa kədər kaldıgından əz kijmətini itirir diqər tərəfdən ʒirqət qəndlilərdən pambıgı aldıgı zəman para verməjub azından 2 aj surundurur.

Belənçi səhlənqarlıklar uzundən qəndlilər ʒirqətdən narazı kalırlar. By barədə həm ʒirqət hejjətinin və həmdə əlakədar idarələr by səhlənqarlıkla mubarizə aparmalı və qənlilərin ehtijacları tə'min edilməlidur.

Çol.

زنگی—تك آقوب گیده‌جك

غزته‌سینه—خیلی کومك ایده‌جك

آبونه—دفتریك آلوب گله‌جك

یازیل—سوزینی تکرار ایده‌جك

که‌ناخوش آروادادر، اونی... الجه ایتمك لازمدر.

اوشاق دوغمیان آروادلارك ثمره‌سزلکی سببی چوقدر و بو "مختصر جوابده برەر برەر یازماق چتیندر. آروادی قادین خسته‌لکلرندن یاخشی آگلایان حکیمه معاینه ایتدیرملی: معالجه اولونورمی اولنمازمی او معین ایده‌بیلر. بعضاً اوشاق دوغماملك سببی آروادك رحمك اگریلکی و رحم پرده‌سنك قبالغی اولیر. او وقت اگریلکی ماساژ ایله دوزلدیر و رحمك قبالنمش پرده‌سنی صیریرلر. بو جور معالجه‌دن سوگرا آرواد اوشاق دوغاییلر، دوباره دیورم اگر کشینك تخمی ساغلامدر یعنی مایاسی وارسا، عکسی حالنده، اگر کشینك تخمنده مایا یوقسا آروادی تداوی ایتمك آرتق شئ‌در.

اوروج دوتماق لازیم می‌در؟

آغیر بیر آی

تورك ملتی ایچون اك آغیر آیلاردان بیری حساب اولنان رمضان قاپی آغزینده‌دادر. قرآن، بیر آی ظرفنده اعتقاد صاحبلرینه گون چیقاندان گون باتاناجن یمکی، توستی اودماغی و درمان قبول ایتمگی علاقه‌ده بولونماغی والخ... قدغن ایدیر. اوروج دوتماقدان یالگز حامله قادینلار، قوجالار و چوجوقلار (اوغلان ۱۵ یاشیناجن قیز ایسه ۹ یاشیناجن) آزاد اولونورلار. حتا چوق وقت بویله چوجوقلار ئوزلرینی اللّهه اخلاصلی گوسترمك ایچون بویله اشگنجه‌لی اوروجی دوتورلار.

اوروجلق گونلری، بوتون گونی چالیشماق مجبوریتنده اولان أمگجیلره چوق آغیر گیچیر. اوزون گونی بو أمگجیلر بیر قورتوم سو ایله بیله ئوز یانغیلارینی سوندرمگه و یورولماغا غلبه چالماق ایچون بر لغمه چورەك ایله بیله ئوز آجلقلارینی رفع ایتمگه قادر اولمایرلار. بو گونلر ئوز چوجوقلارینك حیاتنی تأمین ایتمك ایچون صبحدن آقشاماجن چالیشان دول قادینلارا داها آغیر کیچیر. گون باتاندان سوگرا بونلار یاوان چورەك و سو ایله افتارلارینی آچارکن چوق وقت بر لغمه بیله چورەك یه بیلمه‌یەرك آجلقدن دوشورلر.

باشقاسنك أمگیله یاشایان وارلیلار بویله دگلدرلر؛ اونلار بوتون گونی ئەوده یاخود دکاندا اوتوراراق اللرینی هیچ بیر ایشه وورماز و سوگرا کیجه‌لری لذتلی خوره‌کلر یمك ایله کیچیریرلر. اونلار بعضاً باشقالاریندان مخفی قارینلارینی شرابلادا دولادورورلار. اونلارا البتده‌که، اوروج دوتماق چتین اولماز!...

اوروج و ساغلاملیق

اوروجلق اهالینك ساغلاملغنا اولدقجا آغیر تأثیر باغیشلاییر. بوتون گونك آچلغی انسانی تاقتدن ییله سالیر. اوروجلغك آخیرلاریندا گوجارینك ایشلنمه‌سی نتیجه‌سنده اوروج دوتان قادین و چوجوقلار چوق وقت یوره‌ك گیتمه‌یه دوچار اولورلار.

تام بر آی ظرفنده بوتون گونك آجلغندان سوگرا یالگز بیر دفعه خوره‌ك یمك نتیجه‌سنده بیر چوق خسته‌لکلر میدانه چیقیر. اوروجلغك نتیجه‌سنده عمله گلن خسته‌لکلرك چوقی معده باغیرساق خسته‌لکلریدر.

آجلق نتیجه‌سنده تاقتدن دوشمش اورغانیزم بیر چوق باشقا خسته‌لگلرده گرفتار اولور. شرقده وەرم خسته‌لگنك شدتلی اولماسیده بوندان نشات ایدیر. قید ایتمك لازمدرکه اوروجلق أمگجیلرك ساغلام قوەسنی الیندن آلاراق اونلارا اشگنجه‌دن باشقا هیچ بر شی ویرمه‌ییر.

اوروجلق هارادان توره‌مشدر؟

نه ایچون تورکلر بویله‌آغیر اوروجی دوتماغا باشلادیلار؟ قرآنده یازیلیرکه: (ایکنجی جلد ۱۷۹ سوره): «ای اعتقاد صاحبلری! اوروج سیزدن قاباق گلن شخصلره واجب اولان کیبی سیزلرده‌ده واجبدر. اللّهدان قورخوگرا!».

بو او دیمکدرکه: محمددن قاباق عربلر و سائر ملتلرده اوروج دوتورمشلار. حقیقتده‌ده باشقا ملتلرده‌ده (اعتقاد ایدنلرده) اوروجلغا اوخشار چوقدان بەری دوام ایدن پهریز واردر. خریستیانلاردا «بویوك پهریز یازدا و مولود پهریزی قیشدا بو پهریزلر بیر چوق هفته دوام ایدیر. (برنجی پهریز ۷ هفته و ایکنجیسی ایکی هفته دوام ایدیر). بو پهریز زمانی اعتقاد صاحبلرینه أت و سوت خوره‌کلری یمك قدغن اولنور. یهودیلره مخصوص پاییزدا «أی اوم کیپور» آدینلی بر پهریز واردرکه، بو پهریزده بوتون گونك ظرفنده خوره‌ك یمك قدغن اولنور.

عربلرده اوروجلق آیی همیشه یای فصلنك قوراقلق وقتنه تصادف ایدیر. فصلنك بو وقتنده گون یاندیرمش سحرالاردا حیوانات یمکه علف تاپمایر: اودرکه، برنجی یاغیش دوشه‌نه‌جن اهالی آجلیغا معروض قالیر. بعض عالملر دییرلرکه، وقتیله عربلره و یهودیلره ئوز وارلاریندان قناعتله استفاده ایتمك لازم گلدیگندن، بونلار بر نیچه هفته اوروج دوتاراق یمگی آزالتماغا باشلامشلاردر.

داها سوگرا بوعادت دینی عنعنانا داخل اولور. چونکه، بوتون ابتدائی عادت و عنعنات آخیر نتیجه‌ده دینه داخل اولور. ابتداده بو بایرام یهودیلرك دینی کتابلاریندا گوستریلمش و داها سوگرا «اللّه طرفندن گوندریلمش حکم‌در» دییه محمد قرآنده گوسترمشدر.

قرآن کیملره گذشته کیدیر

اوروجك نه‌طور دوتولماسی خصوصنده قرآنك ۲ نجی جلدینده ۵ آیه گوستریلمشدر: ۱۷۹، ۱۸۰، ۱۸۱، ۱۸۲، و ۱۸۳ نجی آیه‌لر. ۱۸۰ نجی آیه‌ده گوستریلیرکه، خسته و سفرده اولان شخصلر اوروجدان آزاد اولونورلر. اونلار اوروجی سائر وقتده دوتابیله‌رلر. بو آیه مال آلماق ایچون باشقا مملکتلره کیدن تاجرلره چوق الویریشلیدر. داها سوگرا همین آیه‌ده گوستریلیرکه: «هر که اوروج دوتماق ممکن اولمایر و اونی پوزورسا، قوی گناهی باغیشلاتماق ایچون یوقولا یمك ویرسین».

بویله گذشتدن کیملر استفاده ایده‌بیلەر؟ شبهەسز که وارلیلار. وارلی اوروجگ عذابندن خلاص اولماق ایچون عوضنده ممنونیتله فقرایه یمك ویرەر.

آشکاردرکه، اشکنجه‌لی اوروجلغك بوتون آغیرلغی یالگز أمگجیلرك عهده‌سنه دوشور. آشکاردرکه، قرآن وارلیلاری مدافعه ایچون یازیلمشدر.

اوروجلقدان کیم فائده گورور؟

اوروجلق قورتاردیقدان سوگرا هر بر اعتقاد صاحبی مولایا فطره ویرملیدر. لاکن بو فطره‌نك فقیرلره ویرلدیکنی سویله‌یرلر. حقیقتده ایسه بویوك مبلغ توپلایابیلیر. یالگز او مبلغك آز حصه‌سی یوقوللارا ویریلیر. پولك چوق حصه‌سینی ایسه ملا ئوز جیبینه قویور و آلدانمش اعتقاد صاحبلرینکده بوندا اصلا خبرلری اولمایر.

اونا گوره‌ده مولا چالیشیرکه، بوتون مسلمانلار اوروج دوتسونلار. معلوم ایشدرکه، اوروج دوتان نه قدر چوق اولسا، بیر او قدر مولانك جیبینه آرتق پول دولاجاقدر. لاکن ایلدن ایله ایشجی و کندلیلر گوزلرینی آچیر، اوروج دوتماقدان ساقینیر و بویله‌لگله اوروج دوتان أمکجیلرك سایی گیت گیده آزالیر.

حیله توربا‌سی.

اوروجلقدان، باشقا بیر حیله‌ده واردر. ظاهردن بویله گورونورکه، وارلی و یوقول، بورژوی و أمگجی اوروجلقدان بیر ئولچوده جفا چکیرلر. دولتلی و یوقول بیر مقداردا فطره ویریرلر. نه ایچون بو بویله‌در؟ بو اونك ایچوندرکه، أمگجیلر بورژویلار طرفندن استثمار اولندیقلارینی دویابیلمه‌سینلر. بونگله موهومات أمگجیلری ئوز آزاده‌لگلری اوغروندا استثمارچیلار ایله صنفی مبارزه‌دن اوزاقلاشدیریر.

دائما، هریرده موهومات وارلی صنفنك منافعنی مدافعه ایدیر. بو حال خریستیانلاردا، یهودیلرده و باشقا ملتلرده‌ده بویله‌در. هر یرده روحانیلار دینی اعتقاد واسطه‌سیله أمگجیلری استثمارایتمگه چالیشیرلار.

موهومات علیهنه، یگی یاشایش‌لهنه

ایلدن ایله‌آرتق مقداردا أمگجیلربوتون ئولکه‌لرك قاپیتالیستلرینگ و ملکه‌دارلارینك صادق قولی اولان موهوماتدان اوزاقلاشیرلار. ایلدن ایله ئوز فکرینی وار قوه‌سنی سوسیالیزم قورماق ایشینه ویرن اللّهسیزلارك سایی آرتماقدادر. قوی جنت مولا و وارلیلارا قالسین. أمگجیلر ایسه یرده، ایستر تورك، ایستر روس، أرمنی آلمان، حبش والخ ملتلرك عموم کتله‌سنه مخصوص ئویله جنت قوراجاقلاردر.

شانلی اوقتیابر انقلابی بوتون ئولکه‌لرده اولان أمکجیلرك گوزلرینی آچدی و اونلارا عصرلرجه باغلی قالان اسارت زنجیریندن خلاص اولماق ایچون واحد دوغرو یول گوسته‌ردی.

داهیمز لنین، أمگجیلره اللّههی، مولانی، وارلینی بر طرفه توللایاراق سوسیالیزمایا گیتمك یولنی گوسته‌ردی.

شرقك قادینی آغیر سیاسی و اقتصادی اسارتدن خلاص اولدی. بو ساعت او موهوماتك قارانلق و اسارتدن خلاص اولاراق ایشیقلی یولا دوغرو تام بیر استقامتله یورویور.

«ك. ا.»

مدیر مسئول: م. حسینوف

Ք. Չ. Գ. ارمنستان پولیقراف تریستنك ایکنجی مطبعه‌سنده چاپ اولندی Երևան

Butun əlqələrin Proletarları, birləʒiniz!

Abunə kimətləri:
1 Illiqi . . . . 2 manat.
6 Ajlıqı . . . . 1 manat.
3 Ajlıqı . . . . 60 kəpəq

21 Fəvral 1928-nci il.

Адрес Эрив. Ц. К. К. П. (б) Арм.

Zənqi gəzetəsi

Təq nusxəsi 3 kəpəq

ERMƏNISTAN KOMMYNIST (b) FIRKƏSI MƏRQƏZI KOMITƏSININ ORGANI, QƏNDLI GƏZETƏSIDUR.

Jaʒasın iʒçi qəndli ittifakı

Adres: Irəvan K. (b) F. M. Komitəsi

№ 107 | Hər həftə bazar və cumə axʒamlari çıkır. | 3-nci il dəvami

„XORHYRTAIN - HAJASTANI"N 2000 NUMRƏSI.

Ermənistan k. (b) ifrkəsi mərqəzi və Irəvan komitələrinin, Ermənistan Mərqəzi Icraijjə komitəsinin rəsmi organı olan „Xor-hyrtain-Hajastan" (Ʒyra Ermənistanı) gəzetəsinin 2000 numrəsi nəʒr olyndy.

Daʒnak mavzeristlərinin məlyn səjasətlərinə nəhajət verildiqdən sonra mutəakib „Xoryrdajin Hajastan" rəfikimiz nəʒr olynmaga baʒlajyb ʒyra hequmətimizin Ermənistanda əsaslanmasına, milli ədavət və duʒmənçilqləri kaldırılıb Ermənistan xəlklərinin jan-jana və kar daʒanə jaʒamalarına by gəzetə pəq bəjuq xidmət və qəməq qestərmiʒdur.

„Xorhyrtain-Hajastan" Ermənistanda firkə və hequmətimizin saglam səjasətini tə'kib edərəq, xəlkləri həkiki azadəliqə çıkarmaga əlqənin təsərrufat və mədənijjət cəbhəsində bəjuq dahimiz „Lenin"in qestərmiʒ oldygy balʒevik xət və hərəqatini dəvam etdirib səmərəli naticələrə çata bilmiʒdur.

By cəhətdən „Xorhyrtain-Hajastan"ın tarixi ejni zəmanda ʒyra Ermənistanın tarixidur desəq səhv etmiʒ olmajız həkikətəndə, Ermənistan qibi çarlar və mavzeristlər devrində ən zijadə qeri kalmıʒ bir əlqədə firkəmizin ʒiddətli mubarizə zəmanında firkəjə birimci jardımçı mətbyat oldygy ʒubhəsiz dur.

Ermenistan iʒçi və qəndlilərinin ən bəjuq duʒməni olan bjyrokratizma səvadsızlık cəvanlarımızda olan ryh duʒqunluqu və sairəji birinci qunlərdə olan agır məsylijjətli vəzifəji ehdəsinə alan „Xorhyrtain-Hajastan" bəjuq muvəffəkijjətlər əldə etmiʒdur.

By qun onyn 2000 numrəsinin nəʒr edilməsi mədəni muarif cəbhəsində əldə etdiji muvəffəkijjətlər sırasındadur.

Bynynla Ermənistan iʒçi-qəndliləri iftixar etməjə həklidurlər.

By səvincə gəzetəmizin əməqciləri və onyn kələm ordysy olan qəndli muxbirləri də iʒtiraq edir.

Ermənistan zəhmətqeʒlərinin səvə-səvə ogydykları binlərcə tirazlı „Xorhyrtain-Hajastan"in dytmyʒ oldygy balʒevik hərəqatində dəvam etməsinə umid olarak məmləqətimizin sosjalizma kyrylyʒynda qeniʒ qitlənin iʒtraqi və onların karʒılarına çıkan maneləri dəf etməqlə firkəmizin bila vasitə rəhbərliqi altında byna galib qələcəqdur.

Jaʒasın firkəmizin organı və qeməqcisi olan „Xorhyrtain-Hajastan"ın 2000 numrəsi və onyn əməqciləri!

Ictimai mallar muhafizə edilməlidur.

Vedi basar nahijjəsinin Bəjuq Vedi qəndində 1925-nci ildən 3 ədəd traktor qətirilmiʒdur. Fəkət o vəktdən by qunə kədər bir dəfə olsyn ʒoferlər traktorı təmiz silməmiʒlər.

Diqər tərəfdən isə pajız əqinindən sonra traktor çoldə bırakılmıʒ butun kıʒı, hətta imdi belə kar və byzyn altında xarab olmakdadur. „Zənqi" gəzetəsinin jakın nomrələrindən birində agranom joldaʒlar tərəfindən „Maqınları qez ışıqı qibi saklamalı" sərlohəli bir məkalədə ʒoferlərə lazımı tosijələr edilmiʒ dir sədə tə'siflər olsyn qi həman ʒoferlər jaglamak ojanda kalsın, hətta kar və byzyn altından belə qəturməjurlər.

By barədə nahijjə agranom muntikəsi və nahijjə təsərrufat ʒirqəti lazımı əlçulər qəturməli və ictimai malların muhafizəsinə fiqir verməlidur.

Təsərrufatcı.

Umym ittifak jeni turq əlifba mərqəzi komitə uzvu jol. B. Əfəndijef ilə musahibə

Umym ittifak jeni turq əlifba mərqəzi komitəsinin 2-nci plenymından kajıdan jol. **B- Əfendief** muxbirimiz ilə ejlədiqi musahibədə demiʒdur qi:

Umym ittifak jeni turq əlifba mərqəzi komitəsinin iqinci plenymı **orta asjanın** mərqəzi olan **Daʒqənd** ʒəhərində vakə' aldy. Həmin plenyma ʒyralar ittifakının butun **turq-tatar** millətlərinin numajəndələri (jeni əlifba tərəfdarları) həmçinin alim turqlog prafessorlar **Çoban zadə, Jakoklof, Žerof** və ezqələri də'vət olnmyʒlardı. plenymda umym ittifak jeni turq əlifba mərqəzi komitəsinin mə'ryzəsi və məhəllərdən (Baʒqirandan, ezbeqistandan, ʒmali kafkasjadan və ezqə jerlərdən) mə'ryzələr oldy.

Kejd etməq lazımdurqi **Daʒqənd** zəhmətqeʒlər qutləsi umym ittifak jeni turq əlifba mərqəzi komitəsinin 2-nci plenymını canlı bir numajiʒlə karʒıladılar. Qəhnə **Daʒqənd** rajonlarında **„Jok olsyn cəhalət və kəranlıqa bai's olan ərəb əlifbası" „jaʒasın Ʒərkdə mua'rif-mədənijjət inklab joly açan latın hryfatılə jeni turq əlifbası"** ʒy'arlarilə mitinglər, iclaslar, mə'ryzələr oldy. By jıqıncaklarda firkə, həmqarlar ittifaki və ictimai təʒqilatlarda səs birliqi ilə jeni əlifbanı səlamlajarak anidə ona qeçməq hakkında kət'namələr çıkarıldı.

Ʒərkin **Afganistan, Hindustan** və **Iran** kapysında və orta asijanın mərqəzinqə (Daʒqənd) də vake' olan plenym zəhmətqeʒlər kabagına qəhnə əlifbaji rədd etməq və Ʒərkin zəhmətqeʒlərini cəhani muarif mədənijjətlə birləʒdirən jeni əlifbaja qeçməq əsasi məsələji kojdy. 2-nci plenyma iʒtraq edən butun alimlər elm nuktəi nəzərindən dəqil jalnız turq millətlərinin hətta Ʒyralar Ittifakında olan butun tatar xəlklərinin jeni əlifbaja qeçmələrini lazım qerdulər.

Əlifbanın birləʒdirilməsi məsələsi kalkdı, həman məsələ ilə umym ittifak jeni turq əlifba mərqəzi komitəsi daha birinci plenymynda məʒgyl oldy. Iqinci plenymda isə təmamilə təsvib edildi və plenym butun turq-tatar millətlərinin əlifbalarını birləʒdirməqi məksədə muvafik və lazım qerdu. Çunqu bir çeʒitdə mua'rif və mədənijjət inklab birliqi verir.

Əlifbanın birləʒdirilməsində dərt (4) hərfin (ʒ=s, c=ç, k=q və u=y) dəqiʒməsi lazım qəldiqinə bakmıjarak qestərilən birinci hərflər soti tələffuzlərini itirməjub 2-nci hərflərə təbdil olynyrlar. Iqincilər isə birinci hərfləri əvəz edir. By syrətlə umym Ʒyralar Ittifakında bylynan turq-tatar millətlərinin əlifbası birləʒdirildi. Umym Ʒyralar Ittifakı jeni əlifba mərqəzi komitəsinin iqinci plenymy turq-tatar millətlərinin - ədəbijjatını birləʒdirməq ʒyarı ilə xitam byldy.

Jol. **Əfəndijef** bynla musahibəsinə xitam verdi.

Qənd təsərrufatını məhqəmlədən istikraz vərəkəsi almakda hacı eljas qəndliləri birinci jer dytyrlar

On dəkikə içində 190 manatlık bilet satıldı.

Indi sıra ʒəllu dəmirçi—ylyxanly donyz jejən, aʒagı və jykarı necili qəndlilərinin dur.

Razdan nahijəsi icraijə komitəsi sədri joldaʒ Hambarsym Akopjanın qənd təsərrufatını məhqəmlədən istikraz vərəkəsini qəndlilərə nə qibi fajdəsi oldygy həkkində qi mə'ryzəsindən sonra aʒagıdaqi qəndlilər abynə jazıldılar

1- Məʒhədi Həsən Nəzərof 10 m.
2- Məhəmməd Həsənof 10 m.
3- Məhəmməd Məhəmmədof 10 m.
4- Məʒhədi Kasım Əsəd ogly 10 m.
5- Ismail Husejinof 20 m.
6- Qirakos Gəzərjan 20 m.
7- Qərim Kyrban ogly 10 m.
8- Nagı Qərəm ogly 10 m.
9- Həsən Hacı Məmməd Rəhim ogly 10 m.
10- Məʒhədi Əli Əqbər Mirzə Məhəmməd ogly 10 m.
11- Imam verdi Tagı ogly 10 m.
12- Qərbəlajı Ismajil Hacı Məhəmməd Əli ogly 10 m.
13- Abbas Eljasof 10 m.
14 Mahmyd Imranof 5 m.
15- Məʒhədi Abbas Hacı Sulejman ogly 5 m.
16- Aga Riza Hacı Husejin ogly 10 m.
17- Kyrban Hacı Əmrah ogly 5 m.
18- Qərbəlajı Həbib Hacı Əli Əqbər ogly 5 m.
19- Mysa Məhəmməd Əliogly 2½ m.
20- Məhsun cəlil ogly 2½ m.
21- Məʒhədi Ibrahim Ismajil ogly 5 m.

Diqər qəndlilərində jazılmalarını qezləjyriz.

Muəllim

Leninakan kəzası agbaba nahijəsinin qoma-kəraətxanələri

(Nojabir ajı joklamasından)

Agbaba sırf turq rajonı dur, ancak Amasja qəndində bir neçə ev ermənı var dur. By rajonın qoma-kəraətxanələrinin məxsysi binaları jokdur. Xsysi binalar isə qoma-kəraətxanə içun təmamilə na munasib dur.

Oktjabir inklabının 10 illiq sənei dovrijəsi dolajsilə sırf turqlər olan rajonda qoma-kəraətxanə binası tiqməq içun dəvlət 2000 manat brakmiʒ dur. Bina Amasja qəndində tiqiləcəq dur. Inklab bajrami qunində binanın təməli kojlacakdi fəkət texnini səbəblərlə və planın movcyd olmadıqı dolajsilə vake' olmadi.

Qoma-kəraətxanələr 5 dur, onlardan 4-j məhəlli budcə ilə saxlanir, biridə kəza sijasi məarif idarəsi budcəsilə. Sanqi, turqja sərhəddi janında olan qənddə açılmiʒ dur.

Qoma-kəraxanələr sanqi heç bir zəhmət aparmir, və apara bilməzlərdə, çunqi inventar, janacak, ışık və bina cəhətincə onların vəzijəti jaxʒı dəjildur. Sibytlar qestərəlim: Rajon mərqəzində—Amasja qəndində ajlarla qoma-kəraətxanə olmamiʒ dur, olan bina də cokdan bəri rajonın xəlk məhqəməsinə verilmiʒ dur, imdi binasi jok dur, kəraətxanənin qitabları radjonın sandıqı uzərinə dequlmuʒ dur. Kəraətxanə mudiri Ibrahimof aj'ni zəman rəjon sijasi məarif komitəsi sədri dur, və kəraətxanə mudiri olarak heç bir iʒ qerməjub, ajda 40 manat zəhmət həkki almiʒ və almakda dur.

Kara-namaz, Qullu-bylak, Oxçy ogly qoma kəraətxanələridə aj'ni halda durlər, təchizata və baʒlyca binajə ehtijacları var dur.

Kəraətxanə mudirləri nisbətən iktidarca zə'if durlər, laqin kyrslarda bylnanlar, iʒlərdə, kyrslarda bylynmjanlardan daha artık jararli durlər.

Zənnimizcə həmin rajon uzərinə əlahiddə və artık ciddi dikkət jetirməq lazım dur.

Iʒi muntəzəm və kajdalı syrətdə aparmakdan ətəri baʒlyca əsas ʒərtlərdən bir neçəsini kejd edəlim.

Qoma-kəraətxanələr az-çok munasib binalarda jerləʒməli dur.

Jazdan Amasja qəndində tiqiləcəq binanın inʒasına baʒlamali.

Diqər qoma kəraətxanələri içun də xsysi binalar hazırlamaga və by qibi na munasib hallara nihajət verməjə çalıʒmalı.

Inventar içun budcədə nəzərə alnan məbləglər ez məksədinə xidmət etməli. Buəcədə "iʒ aparmak—istifadə etməq" ʒər ləvhəli kreditdən qoma-kəraətxanələrin jakacak, ışık və ezqə iktisadi xərcləri edəməli, hiç bir halda həmin muəssəsələri jakacaksız və ışıksız brakmamali, əqsi halında onlar çalıʒmaz və onların movcydijəti artık iʒ olmyʒ olyr.

Kəranamaz qənddə olan qibi karaətxanə mudirləri ildə 4-5 dəfa' dəjiʒməməq.

Cari təhsil ilində, kraətxanə mudirləri uçun, açılacak kyrslara butun kraətxanə mudirlərini bila fərk qendərməq lazımdur.

K. Stepanjan.

Kejd. — Ali sijasi muarif idarəsinin mə'lymatına qerə imdi vəzijət m[illegible] əlçi ilə də jiʒilmiʒdur.

Kooperatif lazımdur.

Samgar nahijjəsinin ən bəjuq qəndlərindən biridə qolanlı qəndi olyb 700 nəfərə kədər nifysi var dur. By qənddə kooperatifin olmamasından, qənd məhtəqirləri hər bir ʒeji iqi kat kijmətinə satırlar.

Qəndlilərin bə'ziləri məhtəqirlərin əlindən kyrtylmak məksədi ilə kəza və nahijə kooperatiflərinə uzv jazılmıʒlarsada iʒ və kıʒ zamanlarında qedib qəlməq onlar uçun olmajyr.

By qənddə təz bir zəmanda nahijjə və ja xyd, kəza kooperatiflərindən birisinin ʒə'bəsi açılması uçun lazımı idarələrin təʒəbbusatda bylynmasını arzy ediriz.

Jakyb Bajramof.